## BARBARA MARİA PİONT EK



Filologiya üzrə fəlsəfə doktoru Barbara Maria Piontek Opole Universitetinin (Polşa Respublikası) məzunudur. O, Varşava Universitetində "Təhsilin idarə olunması" və "Qlottodidaktika. Polyak dili xarici dil kimi" ixtisasları üzrə əlavə təhsil almışdır. Barbara Piontek polyak dilinin xarici dil kimi tədrisi sahəsində geniş təcrübəyə malikdir.

O, 2006-2022-ci illərdə Polşa Respublikasının Elm və Ali Təhsil Nazirliyinin, həmçinin Milli Akademik Mübadilə Agentliyinin (NAWA) göndərişi ilə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində (Rusiya Federasiyası) polyak dili fənnini tədris etmiş, 2016–2021-ci illərdə isə Polşa səfirliyi nəzdində fəaliyyət göstərən Polşa Mədəniyyət Mərkəzinin (PMM) dil kurslarında metodist kimi çalışmış, polyak dili üzrə dövlət sertifikat imtahanlarının təşkilatçılarından biri olmuşdur

B.Piontek 2023-cü ildən Bakı Slavyan Universiteti və NAWA arasında bağlanmış əməkdaşlıq müqaviləsi çərçivəsində BSU-da polyak dilini tədris edir. O, hazırda BSU-nun Qərbi Slavyan Filologiyası kafedrasında çalışır.

B. Piontek polyak dili ilə yanaşı rus dilində də sərbəst danışır.

---